UOT: 016(1/9)+902

**Yasəmən Sadıqova,**
*M.F.Axundov adına Milli kitabxana,*
*doktorant,*

*yasaman.sadiqova@gmail.com*

# AZƏRBAYCANDA ARXEOLOGİYA ELMİNİN İLKİN SƏNƏD-İNFORMASİYA MƏNBƏLƏRİ VƏ ONLARIN SƏCİYYƏVİ XÜSUSİYƏTLƏRİ

**Açar sözlər:** *Azərbaycan arxeologiyası, arxeoloji qazıntılar, ilkin informasiya mənbələri.*

**Ключевые слова:** *Археология Азербайджана, археологические раскопоки, первичные информационные источники.*

**Key words:** *Archaeology of Azerbaijan, the initial information sources, archaeological excavations.*

Ölkəmiz sivilizasiyanın ən qədim ocaqlarından biridir. Bunu deməyə Azərbaycan ərazisində aparılan və zəngin maddi mədəniyyət abidələrini üzə çıxaran arxeoloji və etnoqrafik tədqiqatların nəticələri əsas verir. XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq tədqiqatçılar tərəfindən erkən əkinçilik mədəniyyətinə aid yaşayış məskənləri, tunc dövrünün şəhərləri, antik və orta əsrlərə aid abidələr aşkar edilib öyrənilmişdir. Lakin, arxeologiya elminin sənəd-informasiya və biblioqrafik mənbələri tədqiq edilməmişdir. Azərbaycanda sözü gedən elmin yaranma və təşəkkül tarixinə dair bir sıra elmi tədqiqatlarda ilkin mənbələr qismən araşdırılmışdır **[1,5,6].** Ümumilikdə Azərbaycanda arxeologiya elminin bibloqrafik informasiya təminatı, o cümlədən ilkin sənəd-informasiya mənbələri heç bir tədqiqat işinin obyekti olmamışdır.

Məqalədə arxeologiyaya dair ilkin sənədlər, onların səciyyəvi xüsusiyyətləri və arxeoloji sənəd kütləsinin formalaşmasında tutduğu yer araşdırılıb.

Azərbaycan arxeologiyasının ilkin mənbələri Azərbaycana səyahət etmiş səyyahların tərtib etdikləri mədəniyyət abidələrinin siyahıları, digər peşə sahiblərinin burada apardıqları qazıntılar haqda təqdim etdikləri hesabatlar və ayrı-ayrı müəlliflərin əsərlərindən ibarətdir.

Azərbaycan abidələrinin geniş təsvirini çoxşaxəli yaradıcılığı ilə seçilən böyük Azərbaycan mütəfəkkiri Abbasqulu Ağa Bakıxanovun Azərbaycan tarixşünaslığının ilk nümunəsi olan "Gülüstani-İrəm" əsəri Azərbaycanın maddi mədəniyyət nümunələri haqqında məlumatla zəngin ilkin mənbə hesab edilir. O bu əsəri yazarkən yazılı mənbələrlə yanaşı ilk dəfə olaraq maddi mədəniyyət abidələrinə bilavasitə müraciət etmiş və onları dəyərli mənbə kimi qiymətləndirmişdir. O gəzərək rast gəldiyi Dərbənd qalası, Qız qalası, Şirvanda Gülüstan qalası, Gilgilçay səddi, Səbayıl qalası, İran Azərbaycanında yerləşən Şeyx Səfi türbəsi və s. abidələrin təsvirini vermişdir. Müasir tədqiqatçı-arxeoloqlar "Gülüstani-İrəm" əsərini bugünkü Azərbaycan arxeologiyasını 150 il qabaqlamış bir əsər kimi qiymətləndirirlər **[7;S.11].**

Hələ XVII əsrdə Naxçıvan ərazisinə səyahət edən Osmanlı yazarı və səyyahı Övliya Çələbi **[4]** 1672-ci ildə İran və Azərbaycana səyahət etmiş fransız səyyahı Jan

Şarden **[16]** və 1817-1820-ci illərdə Azərbaycanda, xüsusən Naxçıvanda olmuş digər fransız səyyahı Ker Porter **[10]** buranın yaşayış məskənləri və tarixi memarlıq abidələri haqqında geniş məlumat toplamışlar. Bundan başqa İsveçrəli səyyah Dyubua de Monpere 1834-cü ildə Azərbaycanda olmuş, Göygöl (Xanlar) rayonunda 30-a qədər müxtəlif kurqanlarda qazıntılar aparmış və Naxçıvandakı türbələrin qısaca siyahısını vermişdir. Səyyah Qafqazda apardığı araşdırmaları ümumiləşdirərək 1839-1844-cu illər ərzində "Qafqaz ətrafında səyahət" adlı 6 cildlik əsəri nəşr etdirmişdir **[12].** XIX əsrin iyirminci illərində Rusiyaya gəlmiş, Qafqaz canişinliyində işləmiş məşhur fransız səyyahı və etnoqrafı İvan İvanoviç Şopen general İ.F.Paskeviçin göstərişi ilə 1829-1832-ci illərdə nəşr etdirdiyi əsərlərində Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində tədqiq etdiyi abidələr haqqında məlumatlar öz əksini tapmışdır **[18].**

Məlumdur ki, Qafqaz, o cümlədən Azərbaycanın bütün sahələrinin öyrənilməsi çar Rusiyasının maraqlarından biri olmuşdu. Ölkəmizin tarixinin öyrənilməsi məqsədilə Rusiya İmperator Arxeoloji Komissiyası tərəfindən Cənubi Qafqaza göndərilmiş Aleksandr Yanovski burada ilk arxeoloji təqiqat aparanlardandır. O apardığı tədqiqatların nəticələrini 1846-cı ildə "Qədim Qafqaz Albaniyası haqqında" adlı çap etdirdiyi məqalədə şərh etmişdir **[19].** Bundan başqa Zaqafqaziya dairəsi baş idarəsinin diplomatik dəftərxanasına ezam olunmuşrus şərqşünasıN.Xanıkov da Azərbaycanda bəzi tədqiqatlar aparmışdır. O "Müsəlman ruhanilərinin Əli təriqətinin vəziyyəti haqqında layihə"sini hazırlayarkən Bərdə, Dərbənd və Naxçıvan ərazilərində apardığı tədqiqatlar haqqında məlumat vermişdir. Digər rus alimi, Naxçıvan şəhər məktəbinin müfəttişi K.Nikitinin "Qafqaz xalqlarının təsviri üçün materiallar məcmuəsi"ndə nəşr etdirdiyi "Naxçıvan şəhəri və Naxçıvan qəzası" **[14]** adlı məqaləsində Naxçıvan şəhərinin mövqeyi, onun qədimliyini sübut edən 12 qala, qüllə, məsçidlər və onların qalıqları, duz mədənlərindən tapılmış daş balta, külünglərdən yazmışdır.

Qafqaz arxeologiyasının öyrəniməsi məqsədilə yaradılan 1871-ci ildə Qafqaz arxeoloji Komitəsi və 1881-ci ildə Tiflisdə çağırılan V arxeoloji qurultay Azərbaycanda arxeoloji tədqiqatların aparılmasına xüsusi maraq yaratdı. Bu dövrdə Qərbi Avropadan gəlmiş qeyri arxeoloqların apardlqları qazıntı işləri Azərbaycan arxeologiyasının öyrənilməsində xüsusi yer tutur. Ümiliyyətlə, Azərbaycanda arxeologiya elminin ilkin sənəd-informasiya kütləsinin əsas hissəsini hesabatlar təşkil edir. Bu hesabatlar Avropa ölkələrindən Azərbaycana gəlib arxeoloji abidələrin qazıntısı tədqiqatçıların qəbir abidələrində aparılan qazıntılar haqqında öz dillərində təqdim etdikləri yekun nəticələrdən ibarətdir. Xarici dildə yazılmış bu hesabatları rus arxeoloqları T.S. Passek və B.A.Latının tərcümə edərək ümumiləşdirib "Очерки до истории Северного Азербайджана" adlı əsəri nəşr etdirmişdilər **[15].** Bu hesabatlar Azərbaycanda aparılan ilk arxeoloji tədqiqatların öyrənilməsi üçün əsas mənbələrdir.

Hərtərəfli biliyə, ensklopedik savada malik və milliyətcə fransız olan A.P.Berje Qafqaz və Azərbaycan arxeologiyasında adı mühüm işlərdə hallanan şəxslərdəndir. 1864-cü ildə Qafqaz Arxeologiya Komissiyasının sədri vəzifəsinə təyin olunur. Qafqazın öyrənilməsində çox qiymətli məşhur elmi mənbə olan "Qafqaz Arxeologiya Komissiyasının Aktları"nın 10 cildi A.Berjenin rəhbərliyi altında çap edilmişdir. Ona bu əzəmətli yaradıcılıq fəaliyyətində N.Q.Berzenov, görkəmli filosof və dramaturq M.F.Axundov , canişinliyin məmuru Nırkov daha çox kömək edirdilər . Təkcə bu faktı xatırladaq ki, "Aktlar"ın ilk beş cildi üçün hazırlanan materialların 700 səhifəyə qədərini A.P.Berjenin köməyi ilə müxtəlif Şərq dillərindən rus dilinə M.F.Axundov

tərcümə etmişdir. Qeyd edək, Azərbaycan mətbuatının təşəkkülü və inkişafı yolunda A.P.Berjenin hərtərəfli xidmətləri xüsusi tədqiqat tələb edir.

Bu dövrdə V.Belk, E.Resler Q.Rozendorf, J.de Morqan və başqaları Azərbaycanın müxtəlif ərazilərində sistemsiz və pərakəndə şəkildə tədqiqatlar aparmış, əldə edilən maddi-mədəniyyət nümunələrini Avropanın müxtəlif ölkələrinin muzeylərinə göndərmişlər. Avropadan gələn tədqiqatçıların əksəriyyəti alman mənşəli olmuşlar. Bu səbəbdən Azərbaycan arxeoloji ədəbiyyatının ilkin nümunələri Almaniyanın Berlin muzeyində daha çox rast gəlinir.Muzeyin keçmiş direktoru V.Nagel və Y.Ştrommenqerin rəhbərliyi ilə 1895-ci ildə ilə burada olan bəzi materiallar toplanaraq “Cənubi Qafqazdakı Kirovabad (Yelizavetpol) ərazisində erkən dəmir dövrünün arxeoloji tapıntıları” adı altında kataloq dərc olunmuşdur **[9]**. Bu kataloqda əsasən Gədəbəyin Qalakənd ərazsində qazıntı aparan V.Belkin tapdığı artefaktlar və yazdığı məktublar öz əksini tapmışdır. Kataloq 1999-cu ildə Azərbaycan dilinə tərcümə edilərək çap olunmuşdur **[8].**Vlademar Belk Gədəbəydə “Simens” misəritmə zavodunda kimyaçı işləyib. Eyni zamanda ətraf ərazilərdə qəbir abidələrin olduğunu müşahidə etmişdir. O, Alman İmperator Arxeoloji Komissiyasının maddi vəsaiti ilə qazıntılar aparmış, əldə olunan materialları Almaniyaya göndərmişdir. O gördüyü işlərin hesabatını “Berlin Etnoqrafiya jurnalı”da (Der Zeitschrift für Ethnologie und der Verhandlunger der Berliner Gasellschaft für Anthropologie) nəşr etdirmişdir. V.Belkin nəşr etditdiyi hesabatda göstərir ki, o, 1888-ci ildən 1890-cı ilədək Gədəbəyin müxtəlif yerlərində (Daşkəsən, Qamışlı, Göydərə, Qalakənd, Qaramurad, “Cənnət qalası”, Qarzaxlı) 300-dən artıq daş qutu qəbirlərində qazıntı aparıb. Yuxarıda adı çəkilən dərgidə digər bir alman mənşəli alimin, Şuşa realni məktəbinin müəllimi Emil Reslerin də hesabatları dərc olunmuşdur. O, Moskva Arxeoloji Komissiyasının tapşırığı və vəsaitiilə Qarabağ və Gəncəçay hövzəsində 1892-ci ildən 1903-cü ilədə arxeoloji tədqiqatlar aparmışdır. Tunc dövrünə aid unikal qəbir abidələrindən əldə etdiyi materialları Sankt Peterburqun Ermitaj və Moskva Dövlət Tarix Muzeyinə göndərmişdir. E. Reslerin hesabatları həmalman dilində “Berlin Etnoqrafiya jurnalı”da, həm də paralel olaraq rus dilində İmperator Arxeoloji Komissiyasının 1893-ildən, 1905-ci ilə qədər olan hesabatlarında nəşr olunmuşdur (Отчёт Императорский Археологический Комисии).

Digər bir alman mənşəli arxeoloq Fridrix Bayern Qafqaz, o cümlədən Azərbaycan arxeologiyasının inkişafında müəyyən rol oynamışdır. O “QafqazdaArxeologiyadostlarıcəmiyyəti” və Tiflisdəmuzeyyaratmışdır. OGəncəXanlığının, Rusiya İmperiyası vaxtında Yelizavetpol quberniyasına və indiki Ermənistan ərazisində, Ağstafaçay kənarında yerləşən Redkin Lager adlanan ərazidə qazıntı araparmış və tapılan materialları özünün yaratdığı müzeyə, Moskva və Berlin muzeylərinə göndərmişdir. Onun apardığı qazıntıların nəticələri monoqrafiya şəklində ölümündən sonra alman antropoloqu Rudolf Vixrov Berlin Antropologiya, Etnoqrafiya və Qədim Tarix Cəmiyyətinin illik məcmuəsində nəşr etdirmişdir **[3].** “RedkinLager”in hələ tədqiq olunmamış original materialları Berlin Tarixəqədər və Erkən Tarix Muzeyində saxlanılmaqdadır **[1, S.78].**

“Berlin Etnoqrafiya jurnalı”nda və İmperator Arxeoloji Komissiyasının hesabatlarında yuxarıda haqqında bəhs edilən tədqiqatçılarla paralel olaraq həmin ərazilərdə alman mənşəli digər tədqiqatçılardan C.Lehmann Haupt, Q.Rosendorf, Q.Skinder, R.Vixrovun hesabatları da dərc olunmuşdur.

Azərbaycan arxeoloji ədəbiyyatın ilkin-sənədlər sırasına Fransız arxeoloqu Jak de Morqanın Talışın dağ rayonlarında apardığı qazıntılar haqqında fransız dilində nəşr

etdirdiyi (Mission Scientifique En Perse, Volumes 1-3.- Paris, 1895) 4 cildlik kitabı da daxildir. Kitabda arxeoloq Lənkəranda apardığı arxeoloji qazıntılar haqqında məlumat verir. J.Morqan kitabında burada 100-dən çox daş qutuqəbir abidəsi tədqiq etməsi və tunc dövrünün sonu dəmir düvrünün əvvəllərinə aid topladığı zəngin madd-mədəniyyət nümunələri və əldə edilən materialları Sen Jermen muzeyinə təhvil verməsi haqda məlumat verir. Qeyd edək ki, son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən Jak de Morqan irsinin araşdırılması üzrə Fransa-Azərbaycan birgə layihə həyata keçirir. J.Morqanın kitabındakı məlumat və xəritələrə əsaslanan, dörd ildən bir təkrarlanan bu araşdırmanın əsas məqsədi XIX əsrin məşhur fransız arxeoloqları olan Jak və Henri Morqanın Lənkəran və Lerik ərazisində apardığı tədqiqat işlərinin nəticələri barədə məlumatların yenidən araşdırılması və nəşridir.

XX əsrin əvvəllərində Moskvaİmpertor Arxeoloji Cəmiyyətində"Qafqaz arxeologiyasına dair materiallar" adlı dərgi təsis edilmişdir. Qafqazda aparılan arxeoloji tədqiqatların nəticələrinin çap olunduğu cəmi 13 buraxılışdan ibarət bu dərginin 6-cı buraxlışında 1896-cı ildə Zaqafqaziyaya ezamiyyətə göndərilmiş cəmiyyətin üzvü A.A.İvanovskinin hesabatı dərc olunmuşdur. O burada işlədiyi müddətdə Gədəbəy və Qalakənd ətrafında 72 daş qutu qəbri açmışdır. Yalnız faktların qeydi və materialların təsviri ilə kifayətlənən digər hesabatlardan fərql olaraq burada olaraq əldə olunmuş maddi-mədəniyyət nümunələrinin elmi təhlilini verməyə çalışmış, onların dövrü haqqında mülahizələr söyləmişdir **[13].**

XX əsrin 20-ci illərindən sonra elmin digər sahələrində olduğu kimi arxeologiya elmində də canlanma müşahidə olundu. Yeni yerli ixtisaslı kadrların hazırlanması və elmi mərkəzlərin yaradılması arxeoloji tədqiqatların elmi əsaslarla sistemli şəkildə aparılmasına şərait yaratdı.Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranan "İstiqlal" muzeyinin əsasında 1920-ci ildə Azərbaycan Tarix Muzeyi təşkil edildi. Onun müdiri D.Şərifov ilk milli kadr kimi arxeoloji abidələrdəmüstəqil arxeoloji qazıntılara başladı. Arxeoloji tədqiqatlar 1923-cü ildə Bakıda yaranan Azərbaycanı Tədqiq və Öyrənən Cəmiyyət, 1927-ci ildə onu əvəz edən Azərbaycanın keçmişini tədqiq edən komitə və 1929-cu ildə yaranan Elmi Tədqiqat İnstitutu tərəfindən aparılırdı. Bu qurumların mətbu orqanlarında artıq sistemli və elmi əsaslara söykənən arxeoloji qazıntıların hesabatlarına və elmi məqalələr dərc edilməyə başlandı. Azərbaycanı Tədqiq və Öyrənən Cəmiyyətinin yaradılmasında xüsusi rolu olan professor Aleksandr Baqrinin müəllifliyi ilə nəşr edlən üç buraxılışdan ibarət "Azərbaycan biblioqrafiyasına dair materiallar" **[11]** da Azərbaycana dair 1890-1923 illər ərzindəki bütün nəşrlər toplanmışdır. Göstəricidə Azərbaycanda arxeologiyasına dair materialların da öz əksini tapmışdır. Bu mənbə Azərbaycan arxeologiyasının biblioqrafik informasiya təminatında ilk yeri tutur.

Ölkəmizdə Rusiyadan dəvət olunmuş alimlər də çalışırdılar. Artıq 30-cu illərdə Azərbaycan arxeologiyası üçün xeyli işlər görmüş akademik İ.İ.Meşşaninovun rəhbərliyi altında İ.M.Cəfərzadə, Ə.K.Ələkbərov və başqalarının iştirakı ilə Qarabağ, Naxçıvan və digər bölgələrə təşkil olunan ekspedisiyalarda arxeoloji abidələri tədqiq edərək bir sıra yeni nəticələr əldə edildi.Arxeoloqlar Ə.Ələkbərovun, İ.Cəfərzadənin, D.Şərifovun, S.Qazıyevin, Y.İ.Hummelin əsərləri arxeoloji ədəbiyyat kütləsinin formalaşmasında xüsusi rol oynayır. Bu alimlərin iştirakı iləXX əsrin 30-cu illərində Mil düzünə, Kiçik Qafqazın cənub-şərq ətəklərinə, Naxçıvan ərazisinə və Azərbaycanın qərb rayonlarına ekspedisiyalar təşkil olunurdu.

1969-cu ildə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev Azərbaycan tarixinin öyrənib araşdırılmasına xüsusi diqqət ayırmağa başladı. Heydər Əliyevin imzaladığı qərara əsasən 1974-cü ildə yerli kadr potensialını nəzərə alaraq elmi tədqiqatların səmərəliliyini yüksəltmək məqsədi ilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun tərkibində Arxeologiya və Etnoqrafiya Sektoru yaradıldı. Naxçıvan, Qəbələ, Şamaxı, Gəncə və digər bölgələrdə arxeoloji bazaların əsası qoyuldu. 70-80-ci illərdə çoxtəbəqəli arxeoloji qazıntılar aparılmağa başlanıldı. Artıq arxeologiya və etnoqrafiya sahəsi üzrə bir sıra mətbu orqanları yaradıldı və nəşr yeni edilən monoqrafiyaların ədəbiyyat kütləsinin nəzərəçarpacaq dərəcədə artması müşahidə olundu. Həmin dövrdə Kitab Palatasının təsis etdiyi cari biblioqrafik göstəricilərdə arxeologiya elminə dair nəşrlər ayrıca bölmə altında qruplaşdırılmağa başlandı.

Ölkəmiz müstəqillik əldə etdikdən sonar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 iyul tarixli qərarı ilə Arxeologiya və Etnoqrafiya Sektorunun bazasında müstəqil Arxeologiya və Etnoqrafiya İnstitutunun təsis edilməsi Azərbaycan arxeologiya və etnoqrafiya elminin daha geniş inkişafına zəmin yaratdı. Cənab İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 5 fevral 2008-ci il tarixli Sərəncamı ölkəmizin bütün bölgələrində arxeoloji tədqiqatların aparılmasına təkan verdi.

Beləliklə, Azərbaycan arxeoloji ədəbiyyat kütləsinin ilkin-sənəd informasiya mənbələri Rusiya və Avropa ölkələrindən gələn və əsasməqsədi elmi-tədqiqat olmayan qeyri arxeoloqlar tərəfindən aparılan qazıntı işlərinin hesabatlarından ibarətdir. Bu hesabatların az bir hissəsi Azərbaycan dilinə tərçümə edilib nəşr edilmişdir. Sonrakı illərdə elmin inkişaf prosesi arxeoloji sənəd kütləsinin artmasına gətirib çıxardı və bü gun də bu proses sürətlə davam edir. Lakin, təəssüflər olsun ki, hələ də bilavasitə Azərbaycan arxeologiyasına dair biblioqrafik göstərici tərtib erdilməmişdir.

**Ədəbiyyat:**


1. Atəşi N. Azərbaycanın Xocalı-Gədəbəy mədəniyyətinin materialları Avropa muzeylərində: (Tarixi-arxeoloj araşdırma). - Bakı, 2015. - 299 s.
2. Bakıxanov A. Gülüstani-İrəm /ön söz.: R.Ağayev. - Bakı: Möminin, 2001. - 287 s.
3. Bayramlı Z. Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə"sində /Bayramlı Z., B Əzizli. - Bakı: Azərbaycan,2000. - 160 s.
4. Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri / red. İ. Nərimanov, M. Müştaq. - Bakı: Azərnəşr, 1960. - 236 s.
5. İbrahimova İ. Azərbaycanda arxeologiya elminin təşəkkülü: (tarixi-arxeoloji tədqiqat): tar. e. n. dər. al. üçün təq. ol. dis.: 07.00.06. / İ.V. İbrahimova; AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu. - Bakı, 2006. - 153 s.
6. Багрий А.В. Материалы для библиографии Азербайджана // Библиографическая Секция Бакинского Дома Работников Просвещения.Вып.I. - Баку, 1924. - 30 с.
7. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд // Сборник материалов для описания местностей и племен Кавказа. Вып.2. - Тифлис, 1882. - С.142.

**Ясемен Садыхова**

**ПЕРВИЧНЫЕ ДОКУМЕНТАЛЬНО-ИНФОРМАЦИОННЫЕ ИСТОЧНИКИ ПО АРХЕОЛОГИЧЕСКОЙ НАУКЕ АЗЕРБАЙДЖАНА И ИХ ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ**

**Резюме**

В статье исследованы первичные источники информации по археологии Азербайджана, а также определены позиции этих источников в потоке археологических документов.

**Yasemen Sadikhova**

**THE PRİMARY DOCUMENTARY İNFORMATİON SOURCES OF ARCHEOLOGY OF AZERBAİJAN AND THEİR TYPİCAL FEATURES**

**Summary**

In this paper was investigated primary sources of Archeology of Azerbaijan and also determined the position of these sources in the flow of the archaeological documents.